VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 195-200
Telif Haqqı©Varlıq Dergisi

Azərbaycanlı Demokrat Bir Gəncin Ömür Yolu

Məhəmmədtağı Zehtabi'nin Həta ı və Yaradıcılığı

● Prof. Dr. Səməd Bayramzadə[1]

M. Zehtabi 1923-cü il oktyabr ayının 13-də Şəbüstər'də kirişçi (balıq emalı ilə bağlı kustar peşə) ailəsində anadan olmuşdur. O, ibtidai təhsilə kənd məktəbində başlamış, lakin 2 il oxuduqdan sonra ailə dolanışığı ilə bağlı təhsildən ayrılmış, sonra özünün təkidilə təhsılini Təbriz'də davam etdirmişdir. Əvvəl "Füyuzat", sonra "Firdovsi" adına orta məktəbin ədəbi şöbəsini bitirib müəllimlik etsə də, ali məktəbdə təhsil almaq fikrindən daşınmır. İran'da və başqa ölkələrdə təhsilini davam etdirmək istəyində olan M. Zehtabi bir çox maddi və digər problemlərlə qarşılaşır.

1941-1945-ci illərdə Təbriz'də Hacı Yusif Şüar'ın təşkil etdiyi xüsusi siniflərdə Ərəbcə və katoliklər kilsəsində Müsyö Cozef Qvinder'in sinfində Fransızcanı yaxşı öyrənən Məhəmmədtağı 1946-cı ildə Azərbaycan Milli Hökuməti'nin Təbriz'də açdığı üniversitənin ədəbiyat fakültəsinin ilk tələbələrindən olur. Seyid Cəfər Pişəvəri'nin həmin fakültədə həftədə iki dəfə "Dünya Ədəbiyatı" mövzusunda oxuduğu

[1] AMEA Şərqşünaslıq İnstitutu, Güney Azərbaycan Şöbəsi. E-post: samadbayramzadehḍgmail.com

mühazirələrini dinləyir. O, Azərbaycan Demokrat Gənclər Təşkilatı'nın tanınmış rəhbərlərindən və S.C. Pişəvəri'nin sevdiyi ziyalı gənclərdən biri olmuşdur. Zehtabi 21 Azər hərəkatında Azərbaycan gəncliyinin ən bariz nümayəndələrindən biri olmuşdur. Azərbaycan'ın azadlığı, onun xoşbəxt gələcəyi uğrundakı quruculuq işlərində gəncliyi həmişə öndə, onun məsuliyyətini isə ən ağır vəzifələrin üzərində görürdü. Azərbaycan Demokrat Firqəsi'nin orqanı olaraq Təbriz'də nəşr olunan *Azərbaycan* qəzetinin 8 aprel 1946-cı il tarixli 167-ci sayında çap olunmuş "Cavanların Diləyi" başlıqlı məqaləsində Zehtabi "Bizlərə, gənclərə silah verin" deyə, çağırış edir və yazırdı ki:

> "...Azərbaycan cavanı məqam, vəzifə istəmir. Azərbaycan cavanı illər boyu əsarət altında qaldığı zaman zəncirin işgəncəsini görüb və başqa millətlərə ağalıq etmək fikrində deyil. ...Bu gün artıq bir məsələ Azərbaycan cavanın fikrini cəlb edir və bu onun bütün vücudunu çulğayıb. ...Bu cavanlar keçmiş qəhrəman və aslan babaların oğulları olduqları kimi qəhrəman şir balası kimi də fikir edirlər. Onlar fikir edirlər ki, atalarının qanı ilə qurulan bu azadlığı qorumaq onların vəzifəsidir. ... Onlar deyirlər ki, biz əlimizə silah alıb vətənimizin sərhədlərində, dağlarda, daşlarda, boranlarda, qarlar üstündə öz sinəmizi düşmən süngülərinə qalxan edib bir daha keçmiş bədnam səhifələrin doğma yurdumuzun tarixində təkrar olunmasına yol verməməyi arzu edirik. ... bütün Azərbaycan'ın qəhrəman gənc oğlanları və qızları bir səslə Milli Hökumətimizə, qəhrəman firqəmizə, bütün rəhbərlərimizə deyirlər ki, milli varlığımızı qorumaqdan ötrü bizlərə silah verin."

Şah hakimiyəti tərəfindən Azərbaycan Milli Hökumət süquta yetirildikdən və Təbriz Üniversitəsi qapanandan sonra təhsilini davam etdirəmək üçün M.T. Zehtabi 1948-ci ildə vətənin bu tayına üz tutsa da "sərhəddi pozduğuna görə" onu həbsə alıb Sibir'ə sürgün edirlər. Nəhayət, 1954-cü ildə bəraət alır və Bakı'ya gəlib təhsilini davam etdirir. Təhsilini başa vurduqdan sonra 15 il Şərqşünaslıq Fakültəsində Ərəb dili və ədəbiyatını tədris edir. "Əbu Nəvvas'ın Həyatı və Yaradıcılığı" mövzusunda dissertasiya (tez) müdafiə edərək, filoloji elmləri namizədi elmi dərəcəsini alır.

Bakı Dövlət Üniversitəsi'ndə işlədiyi dövrdə tələbələrə Ərəb dili və ədəbiyatının incəliklərini öyrətməklə yanaşı, onların mənəvi dəyərlərə yiyələnməsi, Vətənin istiqlalı və tərəqqisi uğrunda çalışan milli ruhlu hərtərəfli vətənpərvər və kamil bir insan kimi şəkillənməsinə çalışır. Bu gün Azərbaycan'ın tanınmış elm və siyasət adamları arasında onun vaxtilə yetişdirdiyi tələbələr də vardır.

M. Zehtabi sovet totalitarizmindən böyük çətinliklərlə canını qurtararaq 1971-ci ildə Iraq'a köçür. Bağdad Üniversitəsi'ndə pedaqojik fəaliyətə başlayır. Orada qədim Türk dillərini və Fars dilini tədris edir. Dilçiliyə aid yazdığı 2 kitab adıgedən üniversitədə dərs vəsaiti kimi istifadə olunur. Yazıb çap etdirdiyi əsərlər əsasında Bağdad Üniversitəsinin Elmi Şurası tərəlindən ona profesor adı verilir.

Iraq'da işlədiyi vaxtlar Avropa'ya səfər edir və bu zaman orada oxuyan güneyli tələbə gənclərlə görüşür və həmin tələbələr ona ana dilini öyrənmək üçün kitab tapmadıqlarını söyləyirlər. Nəticədə profesor "İran Türkcəsinin Sərfı" (qrameri/şəkil bilgisi) kitabını yazır və bu kitab tələbələrin köməyi ilə 1976-cı ildə Almaniya'da çap olunur. Iraq'da yaşayan Kərküklülərin (Türkmənlərin) dili bəzi məhəlli fərqləri nəzərə almasaq, tamamilə Azərbaycan Türkcəsindədir. M. Zehtabi adıgedən kitabı bir qədər təkmilləşdirərək Iraq Türkmənlərinin ləhcə və ədəbiyatı da daxil olmaqla bir dilçilik kitab hazırlayır. Təəssüf ki, kitab sonralar orada onun yox, başqa birisinin imzası ilə çap olunur. Ümumiyətlə, onun dilçiliklə bağlı 6 kitabı çap olunaraq yayılıb.

M. Zehtabi qəzetəçilik və tərcümə sahəsində də qələmini sınayır. Berlin'də *Ərk* dərgisini, Bağdad'da isə 5 müxtəlif dildə *Birlik Yolu* adlı qəzet nəşr etməyə nail olur.

Fransız ədəbiyatından etdiyi tərcümələr hələ 40-cı illərdə qəzet səhifələrində dərc olunur.

Sənət dostu Əliaga Vahid'lə birlikdə klasik ədəbiyatdan tərcümələr edir.

Alim dilçiliklə yanaşı Türk folkloru ilə də məşğul olur. Güney mətbuatında "İslamaqədərki Türk Folkloru və Ədəbiyatı", "Əruzun Türk Foklorunda İzləri" adı altında çap edilmiş silsilə yazıları ümum Türk ədəbiyatına daxil olan dəyərli yazılardandır.

Dr. Zehtabi həm də böyük müşahidə qabiliyətinə malik olan həssas şairdir. Onun qələmindən onlarla gözəl poemalar çıxıb. "Çerik Əfsanəsi", '"Pərvanənin Sərgüzəşti", "Bəxti Yatmış", "Bağban Eloğlu", "Bəzz Qalası'nda", "Mişov'un Əfsanələri", "Həsti-ye Nəsim" (Farsca), "Qoy Olsun On" kimi bədii əsərləri ayrı-ayrı vaxtlarda Bağdad, İstanbul, Berlin və Təbriz'də nəşr olunmuşdur.

"Bağban Eloğlu" poeması şairin çap olunmuş son əsərlərindəndir. Poemanın ilk varyantı Bağdad'da, son təkmilləşmiş forması isə Təbriz'də çap olunmuşdur. Əsərdə o, Məşrutə inqilabının fəal iştirakçılarından biri Həsən Bağban'ın mübarizə dolu həyatını bədii dillə qələmə almışdır. O, bununla bağlı arşiv materialları və tarixi sənədlərlə tanış olub araşdırmalar aparmışdı.

Bu bir həqiqətdir ki, İran'da baş verən inqilablar beşiyi həmişə Güney Azərbaycan və onun baş şəhəri Təbriz olub. Lakin bu barədə İran'ın Fars və keçmiş sovet tarixçilərinin bir qismi susmağı üstün tuturdular. Bütün bunların müqabilində Məşrutə inqilabı ilə bağlı M. Zehtabi'nin fikirləri böyük maraq doğurur. O, Məşrutə inqilabının Rusiya'dakı 1905-ci il inqilabının təsiri ilə başlanması haqqında Marksist-Leninçi ideoloqların fikirlərini qəbul etmir. Yazırdı ki, İran, xüsusilə Azərbaycan xalqının milli şüurunun yüksəlməsi, xalqın bir çox sahələrdəki tərəqqisi Məşrutə inqilabının baş verməsi üçün güclü amil olub tarixin zəruri bir hərəkatını meydana çıxarmışdı. Qeyd edirdi ki, Rusiya'da 1905-ci il inqilabı boğulsa da, Məşrutə inqilabı uzun zaman (1912-ci ilin əvvəllərinədək) davam etdi. M. Zehtabi'yə görə Məşrutə inqilabına XIX əsrin II yarısında Osmanlı imperatorluğunda baş vermiş Tənzimat hərəkatının böyük təsiri olmuşdur. O, bu hərəkatın ideolojik mərkəzinin İstanbul, habelə Misir olduğunu göstərir və bu inqilabın yetişməsində M.F. Axundov və M.Ə. Talıbov'un maarifçilik rolunu da vurğulayır. Yazır ki, Məşrutəyə yardım yalnız Qafqaz və Rusiya'dan deyil, Osmanlı Türkiyəsi'ndən də gəlmişdi və Məşrutə geri çəkiləndən sonra İstanbul məşrutəçilərin sığındıqları və fəaliyətlərini davam etdirdikləri şəhər olub. Sonra qeyd edirdi ki, Bakı'da yaranmış mütərəqqi mətbuat Məşrutə inqilabı ilə sıx ilgili olmuşdur. Məşrutə hərəkatının iştirakçıları əsasən, xalq içərisindən çıxmış və nəcib əməllərinə görə xalqın dərin hörmətini qazanmış şəxslər idi. Bu da özlüyündə onun xalq üsyanı olmasını bir daha sübut edir. Zehtabi yazır ki, bu cömərd insanların adına "xan" kəlməsi qoşar, özlərini də "qoçu", "məşədi" çağırardılar.

Məşrutə inqilabının fəal iştirakçılarından biri el içində böyük hörmət qazanmış Həsən Bağban Təbriz'in Leylava məhəlləsinin mücahidlərinin başçısı idi. M. Zehtabi "Bağban Eloğlu" əsərində Səttarxan'ın 17 mücahidlərindən biri olan, onun həyatını dəfələrlə ölümdən qurtaran, göstərdiyi əməllərə görə "Cəbhənin Ləşgəri", "Məşrutənin Bayraqdarı", "Eloğlu" kimi şərəfli adlar qazanmış Hüseyn Bağban'ın həyatını bədii boyalarla yaratmağa nail olur.

Dr. M. Zehtabi tarix və toponomika sahələri ilə də ciddi məşğul olmuş, araşdırmalar aparmışdır. Onun "İran Şahlarının 2500 İllik Cinayətləri" əsərində Fars millətçilərinin törətdikləri cinayətlərdən bəhs edilir.

Alim İran Türklərinin tarixi ilə bağlı araşdırmalarında böyük ürək yanğısı ilə yazır ki, bu məsələ ilə bağlı dünya Türkolojisində dəqiq bilgi yoxdur, verilən məlumatlar da bilərəkdən saxtalaşdırılıb, xüsusilə onların milli və etnik tərkibi ilə bağlı faktlar təhrif edilib.

Tanınmış Amerika alimi, tarixçi, Qafqazşünas və Azərbaycanşünas Prof. Tadeuş Svyataçovski Güney Azərbaycan tarixini dünya

tarixşünaslığında "ağ ləkə" adlandırıb. Onun bu sahədə söylədikləri M. Zehtabi'nin fikirləri ilə üst-üstə düşür. Zehtabi bu boşluğu, qismən də olsa doldurmaq üçün uzun illər boyu apardığı araşdırmaların nəticəsi olan "İran Türklərinin Əski Tarixi" adlı üç cildlik kitabını yazır. Onun hələlik yalnız birinci cildi ışıq üzü görmüş bu kitabı Türk Dünyasında böyük bir hadisə kimi qarşılanmışdır.

Müəllifln kitabda gəldiyi aşağıdakı nəticə diqqəti daha çox çəkir:

> "Aparılan əsaslı araşdırmalara görə Türklər İran'da 6 min il əvvəl yaşamış və əhalinin əksəriyətini təşkil etmişlər. Bu nisbət bu gün də dəyişilməmişdir. Güney Azərbaycan sərhədlərindən xeyli uzaqlarda olan və İran'ın mərkəzi əyalətlərindən sayılan Həmədan, Savə, Zərənd, Əsədabad'ın əhalisi həmişə Farsdilli kimi qələmə verilib. Bu tamamilə yanlışdır. Bu gün də, bütün tarix boyu da oranın sakinləri Türklər olub. Bunu oradakı qazıntılar zamanı tapılmış gil lövhələr, o yerlərin toponimikası, folkloru, ədəbiyatı təsdiq edir".

Dr. M. Zehtabi millətinə olan sevgisinə ömrü boyu sadiq qalıb. Onun dilinə, elinə xor baxıb qara yaxan millətçilərə həmişə tutarlı cavablar verib, onları susdurub. Əqidəsinə görə başı çox bəlalar çəkən vətənpərvər ziyalıya o tayda "pantürkist", bu tayda vaxtı ilə "millətçi" damğası vurublar. Ömrünün bir hissəsi qürbətdə, sürgündə, həbsxanada keçib.

Bu sətirləri yazarkən Məhəmmədtağı Zehtabi ilə bağlı xatirələrimdən çox ciddi bir məqamı burada qeyd etməyi lazım bildim.

Azərbaycan Cumhuriyəti'nin Tehran'dakı səfirliyində diplomat sifəti ilə çalışdığım illərdən (1992-1995) tanıdığım Güney Azərbaycanlı milli-mədəni fəal, şair, yazıçı, incəsənət xadimi və musiqi müəllimi Həsən Dəmirçi'nin (1941 - 24 iyun 2018) Təbriz'dəki mənzilində 1997-ci ilin iyun ayının 2-də mərhum ustadımız Prof. Məhəmmədtağı Zehtabi ilə bir yerdə olmaq, dərdləşmək, doyunca ona qulaq asmaq imkanına malik oldum.

Söhbət zamanı o çox ciddi bir məsələyə toxunaraq dedi ki, Güney Azərbaycan'da, xüsusən ana dili və milli kadr məsələsinə böyük ehtiyacımız var. Burada Türk dili və ədəbiyatı sahəsində fəaliyət göstərən kadrlarımız vaxtilə ya Bakı'da, ya da İstanbul'da yetişiblər. Onların da ömürlərinin yarıdan çoxu keçib. Öz milli kadrlarımızın yetişməsinə çox böyük ehtiyac var. Bunu 32 milyonluq Azərbaycan xalqı adından deyirəm. Bakı bizim üçün əsas kadr hazırlama bazası olmalıdır. Oraya təhsilə gedənləri orta məktəbi bitirənlər arasından seçmək lazımdır. Çünki onların idrakı, düşüncəsi təmizdir. Onları milli varlığımız ruhunda yetişdirmək, əqidəsini tərbiyə edib formalaşdırmaq daha münasibdir. Sonda bir daha təkrar etdi: Kadr! Kadr! Kadr!

O yenə də Azərbaycan'ın gələcəyini onun gəncliyində görürdü, o gəncliyə, onun zəkasına, qətiyətinə, iradəsinə, milli ruhuna, milli şüuruna, vətən sevgisinə ümid edirdi.

Dr. M. Zehtabi 1998-ci ilin dekabr ayında müəmmalı şəkildə ürək tutmasından qəfil vəfat etmişdir.

M. Zehtabi Təbriz yaxınlığında doğulub boy atdığı Şəbüstər şəhərində dəfn olunmuşdur. Onun vəfalı şagirdləri, düşüncə və məslək dostları Zehtabi'nin məzarını məqbərə şəklinə salmış, indi də onun səliqə və abadlığına xüsusi qayğı göstərirlər. Azərbaycan xalqının bu böyük oğlunun məzarı Təbriz şəhərindəki ziyarətgahlardan birinə çevrilmişdir.